# Dön, geri bax, Aydın müəllim!

**Aydın Abbasovla tanışlığım 1990-cı illərə təsadüf edir. Mən onu tanıyanda o, Sumqayıt şəhər su təchizatı kanalizasiya idarəsinin rəisi idi. Elə ilk görüşdən söhbətimiz baş tutdu. Tanışlığımız yavaş-yavaş dostluğa çevrildi. O məndən bir yaş böyük olsa da, aramızda böyük-kiçik münasibəti qalırdı.**

Aydın Tapdıq oğlu Abbasov 1955-ci il iyul ayının 28-də Tərtər rayonunda fəhlə ailəsində anadan olub. Atası Tərtərə Qərbi Azərbaycandan gəlib. 1977-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirərək mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1978-ci ildə Azərbaycan Elmlər Akademiyasının "Xəzər" elmi mərkəzində başlamış, həmin birlikdə on il müddətində müxtəlif vəzifələrdə işləmişdir. A.Abbasovun 1988-ci ildən sonrakı əmək fəaliyyəti Sumqayıtla bağlıdır. Beş il "Kimya Sənaye" İstehsalat Birliyində şöbə rəisi işləmiş və 1993-cü ildə Sumqayıt şəhər su kanal idarəsinə rəis təyin edilmiş, Səthi Aktiv Maddələr zavodunun direktoru olmuşdur.

O, 18 elmi məqalənin, 20-dən çox səmərələşdirici təklifin müəllifidir. Hazırda "Azərsu" ASC-də departament rəisidir. Əməyi "3-cü dərəcəli Əmək Ordeni", "Tərəqqi" medalı və s. ilə mükafatlandırılıb. Üç övladı, altı nəvəsi var.

***Tanıdığım bu uzun illər ərzində mən Aydın müəllimin şəxsiyyətinə, xarakterinə tam bələd oldum. Xalqın rəğbətini, məhəbbətini qazanmaq asan olmadığı kimi, təmiz adı qoruyub saxlamaq da bir o qədər asan deyil. Ancaq Aydın Abbasov işlədiyi bütün yerlərdə qazandığı təmiz adı qoruyub saxlamağı bacarıb. Elə buna görə də hamı ona yaxşı adam deyir. Başqa bir adla çağırmaq olmazdımı? Əlbəttə, olardı. Ancaq xalq seçim edəndə yanılmır. Aydın Abbasov heç bir təqdimatsız, heç bir mübaliğəsiz və nəhayət, heç bir xüsusi tapşırıqsız özü üçün əməllərinə, şəxsiyyətinə, qabiliyyətinə yaraşan bir titul qazanıb. Bu elə bir tituldur ki, onu ancaq ətraf sənə bağışlayır, özü də səndən xəbərsiz, səndən soruşmadan.***

***

İllər insana şox şey öyrədir. İnsan formalaşır, püxtələşir və nəhayət, illər ötdükcə müdrikləşir. Mənə elə gəlir ki, insana hörmət gətirən onun cəmiyyətdə illərlə qazandığı nüfuzudur. Aydın Abbasov həyatın mütləq həqiqətlərini dərk edən, dünyanın hər üzünü görən, yaxşını pisdən, ağı-qaradan ayırmağı bacaran bir insandır.

***Aydın müəllim Allahın sevdiyi gözü tox, ürəyi yumşaq, qəlbi açıq və olduqca xeyirxah adamdır. Aydın Abbasov dövlətə və dövlətçiliyə olduqca sədaqətlidir. O, alovlu vətənpərvərdir. Dost-tanış, qohum-əqrəba üçün əlindən gələni edir. Xalq üçün, onun mənəvi-zehni inkişafı üçün nə bacarırsa əsirgəmir. Aydın müəllim mərhəmətli və imanlı insandır. Zəngin mənəviyyat və geniş qəlb sahibidir. Sadaladığım bu keyfiyyətlər insanın dünyagörüşündə və fəaliyyətində mühüm yer tutur. Belə adamların bir adı var - Bütöv adam. Aydın Abbasov sözün həqiqi mənasında bütöv adamdır. Rastlaşdığım, təmasda olduğum insanlarda görmədiyim bir çox müsbət keyfiyyətlər var ki, mən bunları Aydın müəllimdə kəşf etmişəm. O, çox səbrli və təmkinlidir. Atalar belələri haqqında deyiblər: "Dərin sular bulanmaz!"***

Aydın müəllim də sanki bir dəryadır. Hər dalğa onu bulandıra bilməz.

***

Hər insana ucalmaq nəsib olmur. Bu bir tərəfdən Allahın yazısı olsa da, digər tərəfdən insanın özündən zəhmət tələb edir. Aydın Abbasov da məhz öz zəhməti hesabına ucalıb. O, xoşbəxt adamdır. Xoşbəxt adam olmağın düsturları bəlkə də çoxdur. Ancaq yəqin ki, onların ən ümdələrindən biri "həmişə sevilən adam" olmasıdır. Aydın müəllim həmişə sevilib, bu gün də sevilir həm evdə, həm kollektivdə. Bundan sonra da nə qədər ömür yaşayacaq, yenə də seviləcək.

***

Əl tutmaq kiməsə maddi yardım etmək demək deyil. Dünya kiməsə kömək etməkdən məmnunluq duyan insanlardan xali deyil. Aydın Abbasov ziyalıdır. Əsl ziyalı üçün isə ən vacib olan keyfiyyətlərdən biri dövrün ictimai-siyasi proseslərinə münasibətdə düzgün mövqe tutmaqdır. Azərbaycan xalqının böhranlı günlər yaşadığı dövrdə o, ən düzgün yolu - böyük tarixi şəxsiyyət Heydər Əliyevin yolunu seçdi və bu gün də öz məsləkinə, andına sadiqdir. Bu sadiqlik təkcə söz olaraq bitmir. O həm də düşünür ki, hansısa adama edilən yaxşılıq Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi kursa az da olsa köməkdir.

***

Bir dəqiqə də insan ömrüdür. Bəzən bu şəxsin kimliyini bilmək üçün elə bir dəqiqə də kifayət edir. Aydın Abbasovun insanlarla ünsiyyət yaratmaq bacarığı, nikbinliyi, həmsöhbətini dinləmək məharəti, yüksək mədəniyyəti insanda qibtə hissi doğurur. Onun ömür kitabının hər səhifə-



sində ləyaqətli bir kişi ömrünün dəqiqələri canlanır. Həmişə əqidəsini, şəxsiyyətini bütün maddi nemətlərdən üstün tutan insanlar xalqın doğmalarına çevrilirlər. Bu keyfiyyətlər həmin şəxsləri xalqa daha da doğmalaşdırır.

Aydın Abbasov insana qarşı çox diqqətlidir. Onunla həmsöhbət olanda görürsən ki, o təkcə gözəl dost, yoldaş deyil, həmçinin kövrək, səmimi, səxavətli, həssas adamdır.

Ömür də bir var-dövlətdir, xərclənə-xərclənə qurtarır. Naşı olsan boşuna, ayıq olsan üslub-üslub xeyirli, faydalı işlərə xərcləyərsən ömrünü. Yararlısı odur ki, böyük məqsədlər yolunda, haqq uğrunda, təbii axarından çıxmadan gələcəyinə, nəslinə kök ola-ola xərcləyəsən ömrünü - Aydın Abbasov kimi.

Onun haqqında hamı xoş sözlər deyir.

**Zahid Aslanov, iş adamı, "Tərəqqi" medallı:**

-Zaman insanları dəyirman daşı kimi əzir və üyüdür. Onun sınağından üzü ağ, alnı açıq çıxanlar da olur. Bu da Tanrının tale yazısıdır. O,öz sevimli bəndələrini qorumağı və yaşatmağı bacarır. Aydın Abbasov bəşəri dəyərləri uca tutan, öz işini mükəmməl bilən bir mütəxəssis kimi Sumqayıtda hörmət sahibidir. O nə etsə, təmənnasız,ağayana edir. Etdiyini heç vaxt üzə vurmur. Onu ürəkdən təbrik edir və ona can sağlığı arzulayıram!

***

***Adam var ki, ötən günləri yada salanda heyfslənir və təəssüf hissi keçirir. Amma Aydın Abbasov keçdiyi ömür yolunun zirvəsindən geriyə baxanda qürur hissi keçirir. Çünki arxada qalan illər ona şərəf gətirib. O illər ki, onun ağrısı-acısı, sevinci-kədəri olub. Elə Aydın Abbasovu yaşadan, sabaha bir addım da aparan həmin ümidli günlərdi. O günlər ki, orada xoşbəxt ailə, bəxtəvər övladlar və nəvələr var. Onun nəvələri ona hər gün bir dünya sevinc bəxş edir. Aydın müəllim deyir ki, əsəbi vaxtlarında, narahat məqamlarında nəvələrini görəndə hər şeyi unudur, dünya gözlərində daha gözəl görünür.***

***65-in mübarək!***

İyul ayının 28-də Aydın Abbasovun 65 yaşı tamam olur. 65 yaş... Götürəndə o qədər də zaman kəsiyi deyil. Təbii ki, say baxımından. Ancaq 65 yaşın insan ömründəki izlərini, çalarlarını göz önünə gətirəndə, istər-istəməz bir an əlini çənənə söykəyib fikrə getməli olursan. Bu 65 yaşın içində uşaqlıq, gənclik, orta yaş... Dahilərdən biri deyib ki, yaş insanı qocaltmır - müdrikləşdirir. İndi Aydın Abbasov daha məğrur, daha qürurlu görünür. Onu belə edən keçdiyi şərəfli ömür yoludur. Bu gün Azərbaycanın tanınmış bir ziyalısı, böyük bir kollektivin rəhbəri 65 yaşdan sonrakı qapını açıb içəri keçir. Bundan sonra nələr olacaq, nələr gələcək. Mənə elə gəlir ki, Aydın Abbasov bu barədə o qədər də narahat deyil. Çünki 65 illik bünövrə var və bundan sonra nə gələcəksə, o bünövrənin üstünə gələcək. Özül möhkəm olandan sonra qorxmağa, çəkinməyə dəyməz. Bütün səni sevənlər adından, dostların, tanışların adından deyirəm:

***Arzudan yoğrulub hər kərpic, hər daş,***
***Özün ucaltmısan öz abidəni.***
***Necə ki, əlimdə qələm var, qardaş,***
***Mən də yazacağam söz abidəni.***

**İbrahim Abdullayev**